

***Tofiq Mustafazadə***
*Azərbaycanın beynəlxalq əlaqələri tarixi şöbəsinin müdiri,*
*tarix elmləri doktoru, professor*

# Nadir Şah.
# Azərbaycan Əfşarlar imperiyası dövründə.

### *Muğan qurultayı – Şah seçkisi, yaxud hərbi çevriliş?*

Əfqanları ölkədən qovmağa, Əfqanıstanın bir hissəsini zəbt etməyə, Azərbaycanı osmanlılardan, Xəzəryanı torpaqları ruslardan geri almağa və bir sıra digər uğurlar əldə etməyə nail olmuş Nadir Əfşar bir gün səfəvi tərəfdarlarının onu hakimiyyətdən kənarlaşdırmağa cəhd edəcəklərindən, azyaşlı şahın əldə olunmuş nailiyyətləri qoruyub saxlaya bilməyəcəyindən ehtiyat edirdi. Buna görə də Dağıstan səfərindən qayıdandan sonra hakimiyyəti rəsmən ələ keçirməyi qarşısına məqsəd qoydu. Ölkənin hər yerinə məktublar göndərib ordu sərkərdələri, əyalət və şəhərlərin hakimləri, qazilər, üləmalar və əyanları şah tacına layiq bildikləri adama vermək üçün Muğan çölündə keçiriləcək qurultaya çağırdı[1].

Muğan düzündə ağacdan və qamışdan 12 min ev, bazar, məscidlər, karvansaralar və hətta hamamlar belə inşa etdirmişdi[2]. Toplaşan 100 min nəfərdən yalnız 15-20 min nəfəri rəsmi nümayəndələr, qalanları isə onları müşayiət edən döyüşçülər və xidmətçi heyəti idi.

Əyalət və şəhər rəislərini əyanları ilə birlikdə hissə-hissə açıq düzdə toplayıb elan olundu ki, Nadir xan qocaldığından və müharibələrdən yorulduğundan Xorasana getməyi arzulayır. Buna görə də onlar məsləhətləşib şah seçməlidirlər. Yeni seçiləcək şah Nadir xanın əldə etdiyi nailiyyətləri qorumağa və dövlətdə əmin-amanlığı təmin etməyə qadir olmalıdır. Nümayəndələrin əksəri şah taxtında Nadiri görmək istədiklərini bildirdikləri halda, bir sıra Azərbaycan feodalları, ilk növbədə Qarabağ bəylərbəyliyinin irsi hakimi, Qacar tayfasından olan Şahverdi xan Ziyadoğlu Səfəvilər sülaləsinin devrilməsinə və Nadirin şah seçilməsinə etirazlarını bildirdilər. Nümayəndələr arasında Nadirin xeyrinə fikir formalaşdırıldıqdan sonra formal seçki keçirildi və Nadir şah "seçildi. Bu əslində seçki yox hərbi çevriliş idi. Seçkidən sonra Nadir şah ilk növbədə Qarabağ bəylərbəyisini sərt cəzalandırdı, Qazax və Borçalını

---

[1] Локкарт Л. Надир шах (пер. с английского Гезаловой Н.) Баку: Ганун, 2004, с.117.
[2] Бакиханов А.А. Гюлистан-и Ирам (Редакция, комментарии и примечания акад. З.М.Буниятова). Баку, Изд-во АН Азерб. ССР, 1991, с. 29.

bəylərbəyliyin tərkibindən çıxarıb Nadiri müdafiə edən Kartli hakimi I Teymurazın təbəəliyinə verdi. Qarabağın xristian məliklikləri bəylərbəyliyin tabeliyindən çıxarılıb, Azərbaycan hakimi təyin edilmiş Nadirin qardaşı İbrahim xanın bilavasitə tabeliyinə keçirildi. Üstəlik Qarabağdakı tayfaların bir hissəsi Xorasana köçürüldü. Bununla da Nadir xan yerli Azərbaycan hakimlərini zəiflədib, gələcəkdə mümkün ola biləcək müqaviməti önləmək istəyirdi.

Nadir tacqoyma ərəfəsində toplantı iştirakçılarını vadar etdi ki, şiəlikdən imtina edərək sünnülüyə nisbətən yaxın olan cəfərilik təriqətinə keçməyə razılaşsınlar.

Tacqoyma mərasimi 1736-cı il martın 8-də həyata keçirildi.

Bundan bir neçə gün əvvəl Nadirin elçisi Əbdülbaqi xan Osmanlı sarayı ilə sülh danışıqları aparmaq üçün İstanbula yola düşdü. Danışıqlar zamanı bir sıra məsələlərlə bağlı asanlıqla razılıq əldə olunsa da, osmanlılar Nadir şahın dini islahatla bağlı təkliflərini qəbul etməkdən qətiyyətlə imtina etdilər. Sentyabrın 28-də imzalanan müqaviləyə əlavədə qeyd edilirdi ki, iki dövlət arasında sərhədlər 1639-cu il 7 may Qəsri-Şirin müqaviləsi ilə müəyyənləşdirilmiş sərhədlərə uyğun olmalıdır[3].

### *Nadir şah Əfşarın aqrar siyasəti və idarəçilikdə islahatlar*

Nadirin ali hakimiyyəti ələ keçirdiyi dövrdə dövlətin vəziyyəti çox ağır idi. Əfqanların, osmanlıların və rusların ağalığı əhalini var-yoxdan çıxartmışdı. Şah Sultan Hüseynin dövründə müşahidə olunan iqtisadi tənəzzül təsərrüfatın tam dağılması ilə əvəzlənmişdi.

Nadir şah iqtisadiyyatın bərpasına yönəlmiş bir sıra tədbirlər həyata keçirdi. Torpaq kadastrı tərtib olundu, müxtəlif yerlərdən kəndlilər atılmış torpaqlara köçürüldü və onlar həmin torpaqları becərməyə başladılar. Yeni şahın aqrar siyasəti dövlət torpaq fondunun artırılması və möhkəmləndirilməsini, xüsusi mülkiyyətin və ayrı-ayrı feodalların iqtisadi və siyasi mövqelərinin zəiflədilməsini təmin etməliydi. Bir mln. tümən dəyərində vəqf torpaqlarının böyük hissəsi, eləcə də maldar tayfalara və bəzi iri feodallara məxsus olan torpaqlar dövlətin xeyrinə müsadirə edildi[4]. Hakimlərin vilayətin mədaxilinə və məxaricinə müdaxiləsinin qarşısını almaq üçün şah əyalət hakimləri və məmurların öz maaşlarını torpaq bəxşişi formasında deyil, pul formasında almalarını əmr etdi.

Daxili və xarici ticarəti canlandırmağa çalışan Nadir şah xarici tacirlərə diqqət göstərir və onların maraqlarını müdafiə edirdi.

Mərkəzləşdirməni gücləndirmək məqsədilə Nadir şah bəylərbəyliklərin sayını azaldaraq mərkəzləri Təbriz, Məşhəd və Şiraz olmaqla üç bəylərbəylik yaratdı. Nəinki

---

[3] Локкарт Л. Надир шах., с.123-124, 129
[4] Müsəvi T.M. Bakı tarixinə aid farsdilli sənədlər (XV-XVIII əsrlər). Bakı: Elm, 1977, s.43.

bəylərbəyilər, eləcə də digər mühüm vəzifələrə təyinatlar şah tərəfindən həyata keçirilirdi.

### *Nadir şahın Qəndəharı alması. Hindistana və Türküstana yürüşləri*

Osmanlılarla cəbhədə sakitlik yaranmasından istifadə edən Nadir şah diqqətini şərqə yönəltdi. O, şah elan olunarkən keçmiş Səfəvi ərazilərindən Qəndəhar və Bəhreyn hələ də dövlətin tərkibinə qatılmamışdı. Ona görə də, həmin əraziləri geri qaytarmaq əzmində idi. Nadir şahın göstərişi ilə Məhəmməd Tağı xan Bəhreyni ələ keçirdi[5].

Qəndəhar çox möhkəm qala olduğundan onun mühasirəsi 11 ay çəkdi və nəhayət, 1738-ci ilin martın 28-də Qəndəhar qarnizonu təslim oldu.[6]

Bundan sonra Nadir şah bütün diqqətini Hindistana yürüşə yönəltdi. Yürüş üçün rəsmi səbəb kimi onun təqib etdiyi əfqanların Hindistan ərazisində sığınacaq tapmasını göstərdi. Əslində isə Nadir şah həm fatehlik arzusunu reallaşdırmaq, həm də boşalmış dövlət xəzinəsini doldurmaq istəyirdi. Xeybər keçidini aşan Nadir şah Peşavər şəhərini müqavimətsiz ələ keçirdi.[7] Burada qardaşı İbrahim xanın Car-Tala iğtişaşçıları ilə toqquşmada həlak olması xəbərini eşitdi və çox kədərləndi. Şah bibisi oğlu Əmiraslan xan Qırxlını Azərbaycan hakimi təyin edib, onu Azərbaycana göndərdi. 1738-ci ilin dekabrın sonunda Lahoru döyüşsüz tutan Nadir şah[8] irəliyə hərəkətini davam etdirdi. Böyük Moğol imperatoru Məhəmməd şah da çox böyük ordu Nadirə qarşı hərəkət edib Karnal yaxınlığında mövqe tutdu. Həlledici döyüşə, Məhəmməd şahın 200-300 min arasında olan ordusuna qarşı Nadir şah cəmi 80-100 minlik ordu çıxara bildi[9].

Fevralın 24-də Karnal döyüşü hindlilərin döyüş fillərini irəli buraxmaları ilə başladı. Nadir şah dəvələrin belinə bağlanmış mis qazanlara od vurmağı əmr etdi. Belləri qızan dəvələr vahimə içində özlərini irəli atdılar. Onların vahiməli qaçışları və nəriltiləri düşmən fillərində də bir vahimə və çaşqınlıq yaratdı. İrəliyə doğru getmək mümkün olmayanda fillər geri qaçdılar və yolları üstündə olan hind döyüşçülərini tapdaladılar. Təşəbbüsə yiyələnən Nadir şah parlaq qələbə çaldı. Məhəmməd şah qorxuya düşüb döyüş meydanından qaçdı[10].

Nadir şahla Məhəmməd şah arasında bağlanmış müqaviləyə görə Məhəmməd şah təzminat ödəməli idi. Ətək və Hind çaylarından qərbdə olan ərazilər, yəni Peşavər, Kabul, Qəznə, Əfqanıstan və bəzi başqa ərazilər Əfşar imperiyasının tərkibinə keçirdi.

---

[5] Локкарт Л. Надир шах, с.132.

[6] Кишмишев С. Походы Надир шаха в Герат, Кандагар, Индию и события после его смерти (составил генерал-лейтенант С.О.Кишмишев). Тифлис, 1889, с.143-145.

[7] Локкарт Л. Надир шах, с.149.

[8]. Кишмишев С. Походы Надир шаха., с.188

[9] James Fraser.The history of Nadir şah, formerli called Tahmas kuli Khan,the present Emperor of Persia.London,1742, p.103

[10] Кишмишев С. Походы Надир шаха., с.195-196.

Nadir şahın Məhəmməd şahdan, onun əyanlarından və əhalidən aldığı pulların, cəvahiratın və digər qiymətli əşyaların məbləği təxminən 70 kurur, yaxud 700 milyon rupi təşkil edirdi. Təqribən 2 ay Dehlidə qalan Nadir şah 1739-cu il mayın 16-də Dehlidən dövlətinə doğru yola düşdü.

Nadir şah yürüşü başladığı, Qəndəharın yanında saldığı Nadirabada çatdıqdan sonra öz dövlətinə dönməyib Türküstan yürüşünə çıxdı. Türküstan yürüşünün ən önəmli səbəbi Xarəzm hakimi İlbars xanın dəfələrlə Xorasana talançı basqınlar etməsi idi. Əvvəlcə Buxara hakimi Əbülfəz xan məğlubiyyətə uğradıldı və Nadir şah Buxaraya daxil oldu. Sonra isə İlbars xana qarşı yönəldi. Hezarasb (və ya Hezarəsb) qalası yanında baş verən döyüşdə İlbars xan məğlub edildi və qətlə yetirildi. Daha sonra, qısa müddətli mühasirədən sonra möhkəm Xivə qalası alındı.

1740-cı ilin oktyabrında Nadir şah Xivədən hərəkət etdi və Məşhədə gəldi.

### *Nadir şahın Dağıstana üçüncü səfəri*

Oğlu Nəsrulla Mirzəni Məşhəddə saxlayan Nadir şah 1741-ci ilin martın 14-də yenidən itaətdən çıxmış Dağıstana yürüşə başladı. Yayın əvvəllərində Yeni Şamaxıdan 35 minlik ordu ilə Qazıqumuqa doğru hərəkət etdi. Avqustun 14-də Dağıstanın mərkəzindəki Qazıqumuq qalası alındı.[11] Sentyabrda Avarıstana doğru hərəkət etsə də havaların soyuması, dağların qarla örtülməsi onu dağlardan enib Dərbənd ətrafında düşərgə salmağa vadar etdi.

1742-ci ilin yazına kimi bu düşərgədə qalan Nadir şah may ayının sonunda tabasaranlılara üstün gəldi. Usmi Əhməd xanın iqamətgahı Qureyş qalası da alındı və usmi Avarıstana qaçdı. Beləliklə, Avarıstan istisna olmaqla Tabasaran, Qaraqaytaq və Qumuq daxil olmaqla Dağıstanın böyük hissəsi nəzarət altına alındı.

Osmanlı dövləti ilə münasibətlərin kəskinləşməsi səbəbindən şah cənuba hərəkətə başladı. Aramsız yağan yağış və qar qoşunların hərəkətini çətinləşdirdi. Şaxtadan don vurmaqdan xeyli döyüşçü tələf oldu. Beləliklə, xeyli insan tələfatına və maddi itkilərə səbəb olan III Dağıstan səfəri Nadir şahın əvvəlcə bir sıra qələbələr qazanmasına baxmayaraq son nəticədə gözlənilən nəticəni vermədi. Eyni relyefə və döyüşkən əhaliyə malik Əfqanıstanda parlaq qələbələr qazandığı halda Nadir şahın Dağıstanda uğur qazanmamasının bir sıra səbəbləri vardı. Əvvəla, Osmanlı imperiyası və Rusiyanın dağlılara yardım göstərmələri, xüsusən də rusların dağıstanlıları müasir çaxmaqlı tüfənglərlə təmin etməsi dağlıların gücünü artırırdı; ikincisi, şahın gənc dağıstanlıları diyardan uzaqlaşdırmaq təşəbbüsü də dağıstanlıların müqavimət əzmini gücləndirmişdi, nəhayət, III Dağıstan səfəri zamanı Nadir şahın ona qarşı sui-qəsddə günahlandırdığı böyük oğlu Rzaqulunun gözlərini çıxartdırması şahın psixikasına

---

[11] Локкарт Л. Надир шах, с.241

mənfi təsir edərək onun psixoloji durumuna mənfi təsir göstərmiş, qeyri-adi şəraitdə adekvat qərarlar qəbul etməsinə mane olmuşdu.

### *Nadir şahın dəniz donanması quruculuğu üzrə tədbirləri*

Nadir şah dövlətin qüdrətli olması üçün hərbi dəniz donanmasının vacibliyini dərk edirdi. O, ilk növbədə Fars körfəzində dəniz donanması təşkil etmək istəyirdi. Nadir şahın göstərişi ilə Buşirdə (Bəndər Nadiri) 1740- cı ilin yayında hərbi gəmilərin hazırlanmazına başlandı. Bəndər Abbasda Ost-Hind şirkəti faktoriyasının rəhbərinin 1741-ci ildə Londona şirkət rəhbərliyinə yazdığına görə o zaman şah 30 böyük hərbi gəmi və xeyli də kiçik hərbi gəmiyə malik idi.[12]

Nadir şah Fars körfəzində olduğu kimi Xəzər dənizində də hərbi donanma yaratmaq istəyirdi. Bu səbəblə də ingilis kapitanı Con Eltona Camal bəy ləqəbi verərərək gəmi inşasına rəhbərliyi tapşırdı. Çox bacarıqlı bir dənizçi olan Elton Ləngərudda və Lahicanda tərsanə qurdu və artıq 1747-ci ildə şahın Xəzər dənizində xeyli hərbi gəmisi vardı.

### *Osmanlılarla yeni müharibələr*

Dağıstan yürüşünü başa çatdıran Nadir şah yenidən osmanlılarla müharibəyə başladı. O, 1743-cü il avqustun əvvəllərində Kərkükə yaxınlaşıb onu aldı. Daha sonra Mosul mühasirəyə alınsa da osmanlılarla sülh danışıqları başladığından Nadir şah Mosulun mühasirəsini qaldırdı və Həmədana döndü[13].

1744-cü ildə Osmanlı sarayının yalançı şahzadə Səfi Mirzəni dəstəkləməsindən qəzəblənən Nadir şah Qarsa tərəf hərəkət etdi. Qars ətrafında tərəflər arasında baş verən qanlı döyüşdə Əhməd paşa məğlubiyyətə uğrayıb qalaya çəkildi. Nadir şahın əmri ilə Qars qalası ətrafında səngərlər qazıldı və qala divarları boyunca artilleriya yerləşdirildi.

Ancaq mühasirə uzandı və havaların soyuması ilə əlaqədar Nadir şah 1744-cü ilin oktyabrında mühasirəyə son qoyub, dekabrında Bərdə ətrafına gəldi. 1745-ci ilin avqustunda Muradtəpə ətrafında Yegən Məhəmməd paşanın başçılıq etdiyi Osmanlı ordusu ilə Nadir şahın ordusu arasında iki döyüşdə yenə Nadir şah qələbə çaldı. Nadir şah yeni sülh təklifləri göndərərək artıq cəfəri təriqətinin tanınmasına barədə israr etmədi. Özü isə Məşhədə getdi və burada Osmanlı elçisi Nazif əfəndi ilə 1746-cı il sentyabrın 4-də sülh müqaviləsi bağlandı. IV Sultan Murad dövründə imzalanmış sülh

[12] Naser Fərid. Nəqşe ərteş dər təhəvvolate tarix-e İran. Tehran, h. 1383 (mil. 2004), s. 78
[13] Yenə orada, 277.

müqaviləsinə riayət olunmalı, onun əsasında müəyyənləşdirilmiş sərhədlər dəyişilməz qalmalı və onlara dəyişiklik edilməməli idi[14].

### *Azərbaycanda Nadir şaha qarşı üsyanlar. Əfşar imperiyasının dağılması*

Nadir şah 1739-cu ildə Böyük Moğol ordusu üzərində qələbə şərəfinə əhalinin üç illik vergilərdən azad olunması haqqında fərman vermişdi. Ancaq fasiləsiz yürüşlər və hərbi əməliyyatlar külli miqdarda vəsait tələb etdiyindən Nadir şah əhali üzərinə yeni vergilər qoyulması haqqında fərmanlar verirdi. Vergilərin artırılması xalq kütlələrinin yeni silahlı üsyanlara başlaması üçün təkan oldu.

Şaha qarşı üsyanlardan biri Şirvanda başlandı. Bu üsyan «yaxşı hökmdar» ideyası altında gedirdi. 1743-cü ildə ardıcı olaraq (ilin I və IV rüblərində) Şirvanda özünü Səfəvi şahzadəsi kimi qələmə verən iki Sam Mirzə meydana çıxmışdı. I Sam Mirzə əvvəlcə Avarıstanda peyda oldu. O, az müddət ərzində ətrafına böyük dəstə toplaya bildi. Tezliklə qazıqumuqlu Surxay xan da Sam Mirzənin düşərgəsinə gəldi. Yalançı şahzadə və Surxay xan 50 minlik ordu ilə hərəkət edib Şamaxını ələ keçirdilər. Yerli əhali Sam Mirzəni sevinclə qarşıladı. Lakin tezliklə şahzadə Nəsrulla Mirzənin komandanlıq etdiyi nizami Əfşar ordusu Şamaxıya yaxınlaşdı. Sam Mirzə qaçmaq istərkən ələ keçirildi və edam edildi.

1743-cü ilin sonuncu rübündə «Bini-boeride» (Burnukəsik) ləqəbi ilə tanınan II Sam Mirzə fəallaşdı. Həmin şəxs hələ birinci Sam Mirzə meydana gələnə qədər özünü Səfəvi taxtının qanuni şahzadəsi kimi qələmə verərək, Təbrizdə şah rejimi əleyhinə üsyan qaldırmağa uğursuz cəhd göstərmişdi. Bu şəxsi tutan yerli hakim onu ciddi rəqib saymayaraq burnunu kəsdirib özünü azad buraxmışdı. Buna görə də ona («bini-boride” (burnukəsik) ləqəbi verilmişdi. Uzun müddət sərgərdan həyat keçirdikdən sonra həmin şəxs Dağıstanda özünə sığınacaq tapmış və buradan Surxay xanın oğlu Məhəmmədin qüvvələri ilə birlikdə Dərbəndə hərəkət etmişdi. Şabranla Dərbənd arasında Şirvan üsyançıları Şirvan hakimi Heydər xana hücum edib ordusunu məğlubiyyətə uğratdılar, özünü isə öldürdülər. Bundan sonra üsyançılar Şirvanın mərkəzi Yeni Şamaxını (Ağsu) ələ keçirdilər. Nadir şah Şirvan üsyançılarına qarşı yenidən oğlu Nəsrulla Mirzənin başçılığı ilə böyük bir ordu göndərdi. Tərəflər arasında baş vermiş yeni döyüşdə şah ordusunun artilleriyasının zərbələri altında üsyançılar geri çəkildilər. II Sam Mirzə Ağsunu tərk edib Şərqi Gürcüstan tərəfə yollandı, lakin burada Kaxeti hakimi Teymuraz onu əsir alaraq Nəsrulla Mirzənin düşərgəsinə göndərdi.[15]Nadir şahın əmri ilə II Sam Mirzənin bir gözü çıxarıldı və eşşəyə mindirilib Qarsa, digər yalançı şahzadə

---

[14] Локкарт Л.Надир шах, с.304-305
[15] Мухаммед Кязим.Наме-йи аламара-йи надири.т.3Москва:1960,лл.132 б-133 а

Səfi Mirzəni himayə edən Əhməd paşanın yanına göndərildi ki, qoy “məchul qardaşlar” görüşsünlər.[16]Amma Sam Mirzə yolda öldü.

Sam Mirzənin ölümündən sonra Şirvan üsyançıları başqa bir yalançı şahzadənin, Osmanlı imperiyasının əlaltısı olan Səfi Mirzənin ətrafında birləşməyə çalışdılar. Lakin Nadirlə sülh bağlamaq niyyətində olan Osmanlı sarayı tezliklə Səfi Mirzəni geri çağırdı.

Elə bu vaxtlarda Şəkidə yeni üsyan alovlandı. Burada üsyana Şəkidə böyük nüfuzu olan vəkil vəzifəsini ifa edən Hacı Çələbi Qurban oğlu başçılıq edirdi. Hacı Çələbi şahın Şəkidəki nümayəndəsi Məlik Nəcəfi öldürüb, özünü Şəkinin xanı elan etdi[17].

Nadir şahın başı osmanlılarla müharibə ilə məşğul olduğundan yalnız 1744-cü ilin payızında Şəkiyə gəlib 15 minlik qoşunla Gələsən-Görəsən qalası üzərinə hücum etdi. Yol dar olduğundan yalnız kiçik dəstələrlə hücum etmək mümkün idi. 5 aydan sonra Nadir şah qala qarşısında bir qədər döyüşçü qoyub özü buranı tərk etdi.

1746-cı ilin martında ərzaq çatışmazlığı nəticəsində qalada yaranmış ağır vəziyyətlə əlaqədar Hacı Çələbi Nadir şahın hakimiyyətini tanıdığını bildirdi. Nadir şah da güzəştə getdi və Hacı Çələbinin yenidən Şəkiyə vəkil təyin etdi.

40-cı illərinin sonlarında Azərbaycanın cənubunda güclü üsyanlar başlandı. Ən böyük üsyanın başında III Sam Mizə dayanırdı.

1747-ci il iyunun 19-da Nadir şahın qətli ilə onun dövləti əslində süqut etdi. Silah gücünə imperiyaya ilhaq edilmiş ölkələr tədricən özlərinin keçmiş müstəqilliklərini bərpa etməyə başladılar. Bu dövrdə Azərbaycanda da müstəqil xanlıqların yaranması prosesi gedirdi.

Nadir şahın yaratdığı imperiya dağılsa da o, nəinki Azərbaycanın və İranın, eləcə də bütün Şərqin tarixində dərin iz qoymuşdur. Sadə kəndli ailəsindən çıxmasına və heç bir təhsil almamasına baxmayaraq fitri istedadı sayəsində dünyanın ən böyük sərkərdələri səviyyəsinə qalxa bilmişdi .Avropa tarixçiləri Nadir şahı Əmir Teymurla və Napoleon Bonapartla müqayisə edir, “Asiyanın son fatehi” adlandırırlar.

[16] Actrabadi.Mirzə Mehdi xan.Cahanqoşaye-Naderi.Tehran:h.ş.1377(mil.1998),s.402-403

[17] Kərim ağa Fateh. Şəki xanlarının müxtəsər tarixi, s. 16; Hacı Seyid Əbdülhəmid. Şəki xanları və onların nəsilləri // Şəki xanlarının tarixindən, s. 27.